# AKADEMİK İSA HƏBİBBƏYLİNİN AZƏRBAYCAN ƏDƏBİYYATI TARİXİNİN DÖVRLƏŞDİRMƏ KONSEPSİYASI

*(Əvvəli ötən saylarımızda)*

Bu mərhələdə Cənubi Azərbaycanda da ədəbiyyatın tənqidi realizm, maarifçi realizm və romantizm istiqamətlərində inkişaf etmiş olduğunu söyləyən İsa Həbibbəyli Mirzəli Möcüz Şəbüstəri (1873-1934), Bayraməli Abbaszadə (1869-1926), Cabbar Əsgərzadə Baxçaban (1885-1966), Məmmədəli Manafzadə Sabit (1888-1940) kimi "Cənubi Azərbaycan tənqidi-realist ədəbiyyatının yaradıcıları"nın Arazın hər iki tayında tanındığını yazır.

Mirzəli Möcüz Şəbüstərinin "Cənubi Azərbaycanın Sabiri", "Molla Nəsrəddin" ədəbi məktəbinin görkəmli yaradıcısı, əsərlərində zəhmətkeş xalqın haqlarını müdafiə edən, "ictimai-mədəni tərəqqiyə çağırış motivləri" qüvvətli olan sənətkar kimi xarakterizə edir.

Daha çox Şimali Azərbaycanda yaşayıb-yaratmış Cənubi Azərbaycan şairi Bayraməli Abbaszadənin İrandakı istibdad rejimini cəsarətlə tənqid etməsi, Cənubi Azərbaycandakı Məşrutə hərəkatının fəal iştirakçısı olması və Səttarxanın apardığı milli-azadlıq mübarizəsinə bəslədiyi inamı əsərlərində ifadə edən, "bütövlükdə Şərq müsəlman dünyasının nicatı və gələcəyi haqqındakı düşüncələri"nin "yetkin və aydın siyasi baxışlara malik" bir şəxsiyyət olmasını da təsdiq etdiyini şeirlərindən birindən gətirdiyi aşağıdakı nümunələrlə diqqətə çatdırır:

Şərqə hürriyyət doğarsa, məncə, zəhmətdən doğar,
Şəni-şövkət birlik etməkdən, həmiyyətdən doğar.
Əldə al bayraq, dodaqda, dildə hürriyyət sözü,
Nail olmaq məqsədə, əlbəttə, qeyrətdən doğar.

"Şimali Azərbaycanda doğulub boya-başa çatmış, İrəvan şəhərində "Lək-lək" adlı satirik jurnal nəşr etdirmiş, "Molla Nəsrəddin" məcmuəsində Leylək gizli imzası ilə yaxından iştirak etmiş Cabbar Əsgərzadə"nin 1919-cu ildə I Dünya müharibəsi hadisələri zamanı ata-baba yurdu olan İrana köçərək, Mərənddə, Təbrizdə və Tehranda yaşayıb-yaratdığını, "İranın maarifçilik hərəkatının əsas yaradıcılarından" biri olduğunu, yaradıcılığında iki istiqamətin - satira və maarifçi şeirlərin "qoşa qanad kimi" inkişaf etdiyini yazır: "O, xalqın milli oyanışı və dirçəlişinə, siyasi-mənəvi azadlığına həsr olunmuş şeirləri ilə özünəməxsus mövqe nümayiş etdirmişdir. "Balaca felyeton" adlandırdığı şeirində cəmiyyətin ən müxtəlif təbəqələrini onun öz dili ilə Sabiranə bir üslubda ifşa etmişdir. O, "Molla və hörümçək" adlı didaktik məzmuna malik şeirində isə cəmiyyətin yuxarı təbəqələrinə işarə edərək "Pisdisə özgənin qanın içmək, Sən özün get qan içməkdən əl çək" - kimi sərt ictimai fikirləri diqqət mərkəzinə çəkmişdir. Ümumiyyətlə, Baxçaban təqdim etdiyi tipin dilindən danışıb, cəmiyyətdə baş verən proseslərə özünün tənqidi münasibətini ifadə etməkdə məharət göstərmişdir".

Məmmədəli Manafzadə Sabitin "Molla Nəsrəddin" jurnalında "Dastançı" imzası ilə fəaliyyətini, çap etdirdiyi şeirləri ilə "tənqidi-realist ədəbiyyatın inkişafında özünəməxsus rolu olan şairlərdən biri kimi" tanındığını, onu Abbas Zamanovun ədəbiyyatdakı xidmətlərini yüksək qiymətləndirdiyini ("əsrimizin əvvəllərində mətbuatda həm ciddi, həm də satirik şeirlərlə çıxış etmiş"dir), onun şeirlərində "satira ilə maarifçi nəsihət"in bir-birini tamamladığını yazır:

XX əsrin əvvəlləri Cənubi Azərbaycan ədəbiyyatında milli azadlıq hərəkatının lideri Şeyx Məhəmməd Xiyabaninin (1879-1920) yaradıcılığının xüsusi yeri tutduğunu bildirən alim "Məşrutə hərəkatında Səttarxanın əsas silahdaşlarından biri kimi" iştirak edən, eyni zamanda, II İran Məclisində millət vəkili olaraq siyasi fəaliyyətini davam etdirən Şeyx Məhəmməd Xiyabaninin, "1920-ci il Azadistan dövlətinin yaradıcısı" kimi böyük tarixi rolunu, milli-azadlıq hərəkatına həsr olunmuş siyasi publisistikası ilə tanındığını, bu istiqamətdə ardıcıl fəaliyyətini qiymətləndirir.

Bu dövrdə Cənubi Azərbaycanda inkişaf edən maarifçi və romantik ədəbiyyatın tanınmış simalarından Hacı Rza Sərrafın (1854-1907), Səid Səlmasinin (1887-1909) rolunu dəyərləndirir. AXC-nin süqutundan sonra ölkəni tərk etməyə məcbur edilmiş Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Məhəmməd Hadi, Almas İldırım, Məhəmməd Əmin Rəsulzadə, Ümmül Banu (Banin), Əlimərdan bəy Topçubaşov, Ceyhun Hacıbəyli, Yusif Vəzir Çəmənzəminli, Məhəmməd Əsəd bəyin Azərbaycan mühacirət ədəbiyyatının nümayəndələri olduqlarını bildirir.

XX əsrin əvvəllərində ədəbiyyatşünaslıq sahəsində yetişən, bu elmin yaradıcılarından olan Firidun bəy Köçərlinin (1863-1920) "Azərbaycan ədəbiyyatının tarixi materialları" əsərinin "ilk sistemli ədəbiyyat tarixi kimi" mühüm əhəmiyyətə malik olduğunu yazır.

Eyni zamanda Abdulla Surun "Azərbaycan ədəbiyyatına bir nəzər", Hüseyn Cavidin "Müharibə və ədəbiyyat" adlı geniş həcmli məqaləsini, "Molla Nəsrəddin" jurnalında mollanəsrəddinçi şair və yazıçıların, xüsusən Cəlil Məmmədquluzadənin ədəbiyyat haqqındakı ədəbi-tənqidi baxışlarını, Əli bəy Hüseynzadənin "Füyuzat" jurnalında çap olunan romantik ədəbiyyatın elmi-nəzəri əsaslarını əks etdirən məqalələrini diqqətə çəkir və "XX əsrin əvvəllərində ədəbi tənqid və ədəbiyyatşünaslıq elminin formalaşmağa başladığını vurğulayır. Bura həmin mərhələdə yaşayıb-yaratmış şair və yazıçıların ədəbiyyat haqqındakı baxışlarına dair mülahizələrini də əlavə etsək, XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatşünaslıq elminin mühüm bir formalaşma dövrü keçdiyi, müəyyən nailiyyətlər əldə etdiyi qənaətində ola bilərik" - deyir.



Gəlinən qənaət budur ki, XX əsrin əvvəllərində yaranmış ədəbiyyatımız XVIII-XIX əsrlərdə yaranıb inkişaf etmiş milli realist ədəbiyyatı "ideya-bədii və elmi-nəzəri cəhətdən yekunlaşdırıb" "yeni ədəbiyyat hadisəsi səviyyəsinə" qaldırmışdır və buna görə də "XX əsrin əvvəllərinin ədəbiyyatı XIX əsr ədəbiyyatı ilə birlikdə, həm də yeni dövr Azərbaycan ədəbiyyatı" adlandırılır. Eyni zamanda "XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatında milli və demokratik ideyalar bütün qütblərə aid yazıçı və şairlərin yaradıcılığında əsas yer tutduğu üçün bu ədəbiyyat milli-demokratik hərəkat dövrünün ədəbiyyatı kimi də səciyyələndirilir". Bütün bunlarla bərabər, dövrləşdirmə baxımından XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının bu tarixi epoxanın aparıcı ədəbi hərəkatını müəyyənləşdirən tənqidi realizm və romantizm epoxası hesab edilməsini tamamilə "məqsədəuyğun" hesab edir.

İsa Həbibbəyli XX əsrin əvvəllərində Azərbaycanda tənqidi realizm, romantizm və sentimentalizm ədəbi cərəyanlarının arasında tənqidi realizmin aparıcı ədəbi cərəyan olduğunu bildirir və buna görə də "bütövlükdə XX əsrin əvvəllərinin ədəbiyyatına Azərbaycan ədəbiyyatının "Molla Nəsrəddin" dövrü, yaxud tənqidi realizm epoxası da adlandığını, XX əsrin əvvəllərinin maarifçi realizminin "XIX əsr Azərbaycan maarifçi realizminin davamı və inkişafı" olub, "həm də ideya-estetik keyfiyyətləri və hədəfləri etibarilə yeni tarixi epoxanın tənqidi realizminə" yaxın olduğunu, "XX əsrin realizmi dedikdə daha çox yeni xassəyə malik olan tənqidi realizm" başa düşüldüyünü yazır və eyni prosesin "romantizm və sentimentalizm ədəbi cərəyanlarına münasibətdə də" nəzərə çarpdığını bildirir.

### D. Sosialist realizmi, milli-mənəvi özünüdərk və istiqlal ədəbiyyatı

Səkkizinci mərhələ "Azərbaycan ədəbiyyatında sosializm dövrü" adlandırılır.

Bu mərhələdə bədii düşüncədəki milli və maarifçi idealları, demokratik baxışları tədricən sosializm ideyalarının əvəz etdiyini, ədəbi inkişafda meydana çıxan bolşevik ruhlu "yeni tipli ədəbiyyatın" formalaşdırıldığını, yeni quruluşu tərənnüm edən "ələmdən nəşəyə" motivli əsərlərin ön sıraya çəkildiyini yazır.

Başlanğıc mərhələdə (1920-1930-cu illərdə) ədəbiyyatda yeni ideologiya ilə klassik realist və romantik ənənənin yanaşı fəaliyyətini, bunula belə klassik yazıçıların "yeni dövrün tələblərinə dərhal uyğunlaşa bilmədikləri"ndən, "nəzərəçarpacaq bir durğunluq, gözləmə mövqeyi, bədbinlik əlamətləri, hətta ümidsizlik notları"nı diqqətə çəkir. Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Əbdürrəhim bəy Haqverdiyev, Nəcəf bəy Vəzirov, Yusif Vəzir Çəmənzəminli və başqalarının yaradıcılığında da bunu "açıq və ya örtülü şəkildə" ifadə edildiyini söyləyir. 1937-ci il repressiyasının ədəbi mühitə vurduğu ağır zərbəni, buna tədqiqatçıların baxışlarını ("30-cu illərin analoqu olmayan repressiya kabusu təkcə istedadlı, vətənpərvər adamları tragik şəkildə həyatdan, sevdiyi sənətdən ayırmadı (bu, maddi, statistiklərin hesablayacağı itkidir), həm də on minlərlə oxuma və yazma savadı olmayan adamları belə ağuşuna alaraq xalqın şüurunu dəyişdi, onu tərəqqidən saxladı, mənəviyyata, tarixi-etnik düşüncəyə ağır zərbə vurdu (bunu isə artıq statistiklər heç cür hesablaya bilməz!). Neçə-neçə bədii düşüncə, mənəvi-əxlaqi dəyərlər məhv oldu, nəticədə ən böyük ziyanı xalq çəkdi") önə çəkir.

Bu dövrdə yaranan ədəbiyyat cəmiyyətlərindən 1925-ci ildə Süleyman Sani Axundovun sədrliyi ilə təşkil edilmiş "İldırım" Türk ədib və şairlər ittifaqı"-nın, "ənənəvi ədəbi materiallara yer ayrılması sovet ölkəsinin ədəbiyyat siyasətinin həyata keçirilməsinə təkan verə bilmədiyindən, 1926-cı ildə daha çox yeni nəsil ədəbi qüvvələri öz ətrafında cəmləşdirən "Gənc Qızıl Qələmlər İttifaqı" yaradılmasını, "Ədəbiyyat cəmiyyəti"nin üzvlərinin əksəriyyəti də bu təşkilata daxil olduqdan sonra 30 noyabr 1926-cı il tarixdən etibarən Teymur Hüseynovun sədrliyi ilə "Qızıl qələmlər" cəmiyyətinin yaradılmasını, bu cəmiyyətin "proletar ədəbiyyatının meydanının genişləndirilməsi və mövqeyinin möhkəmləndirilməsi uğrunda" mübarizə apardığını qeyd edir. Mehdi Hüseynin ("bu qələmlər özləri ilə yeni məfkurə, yeni sənət gətirdilər"), Əli Nazimin ("gənc qızıl qələmlərin ən açıq və bariz xüsusiyyəti onda sinfi simanın digərlərindən daha açıq şəkildə təzahür etməsidir") qənaətlərində "proletar ədəbiyyatı yollarında dönmədən səy göstərən "Qızıl qələmlər" hərəkatının əsas mahiyyəti"nin ifadə olunduğunu, 1928-ci ildə yaranan Azərbaycan Proletar Yazıçıları Cəmiyyətinin "köhnə yazıçılara" qarşı ittihamlarının gücləndiyini, "ədəbi nəslin meydanının genişləndirilmiş" olduğunu diqqətə çəkir.

Azərbaycan Proletar Yazıçıları Cəmiyyətinin fəaliyyət göstərdiyi 1929-1932-ci illərin haqlı olaraq "dramatik səhnələr yaşanmış, türkçülüyə, müsavatçılığa, millətçiliyə qarşı mübarizə illəri" "1929-1932-ci illərin bu baxımdan irtica illəri" hesab edildiyini söyləyir.

"Nəhayət, ÜİK(b)P MK-nın "Ədəbiyyat və incəsənət təşkilatlarının yenidən qurulması haqqında"kı 24 aprel 1932-ci il tarixli qərarı ilə "sovet hökumətinin platformasını müdafiə edən" proletar olan və olmayan bütün yazıçıların vahid yaradıcılıq təşkilatında birləşdirməyə dair çağırışından sonra ədəbi mühitdəki gərgin qarşıdurmalar nisbətən aradan qaldırılmışdır" - deyən İsa Həbibbəyli haqlı olaraq bu fikirdədir ki, "Sovet hakimiyyətinin həyata keçirdiyi proletar ədəbiyyatı siyasəti və qanlı repressiyalar, nəticə etibarilə ədəbiyyatda "ələmdən nəşəyə" motivinin tam üstünlük qazanmasına gətirib çıxarmışdır. Proletkultçuluq kampaniyası sosializm ruhunda yazan gənc nəslin cəmiyyətin ön mövqeyinə çıxarılmasına yol açmışdır". Sovetlər İttifaqı miqyasında SSRİ Yazıçılar İttifaqının, o cümlədən respublikaların Yazıçılar İttifaqının yaradıldığını, o cümlədən Azərbaycan SSR Yazıçılar İttifaqının 1934-cü ildə yaradılmasının "yaradıcı qüvvələr arasındakı cəbhələşmənin əvəzinə onların vahid yaradıcılar təşkilatında birləşdirilməsi-nə" şərait yaratmış olduğunu bildirən İsa Həbibbəyli həmin vaxtdan "sosialist realizmi sovet ədəbiyyatının vahid yaradıcılıq metodu kimi qəbul edilmişdir", - deyir.

"Ədəbiyyat haqqında sovet nəzəriyyəsinin banisi" Maksim Qorkinin ideyalarını təhlil edən alim sovet ədəbiyyatının vahid yaradıcılıq metodunun müəyyən edildiyini, "partiyalılıq və sinfilik sosializm dövrü ədəbiyyatının əsas yaradıcılıq metodu olan sosialist realizminin ən mühüm prinsipləri kimi irəli sürülmüş" olduğunu açıqlayır.

*(Davamı var)*

***Gülxani PƏNAH***